

# Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir

***Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biridir. Bunun nəticəsidir ki, respublikamızla Aİ arasında əlaqələr enerji, investisiya, ticarət və s. sahələrdə yüksək səviyyədə inkişaf edib, bu beynəlxalq təşkilat Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Respublikamız isə Avropa bazarlarına xam neft nəqlini həyata keçirən etibarlı təchizatçı kimi tanınıb və yaxın zamanda ölkəmizin Aİ-yə üzv dövlətləri təbii qazla da təchiz edəcəyi nəzərdə tutulub. Respublikamızda Aİ ilə birgə müxtəlif proqramlar və layihələr də uğurla reallaşdırılıb.***

Prezident İlham Əliyev İsveçin Azərbaycanda yeni təyin olunan səfiri Kristian Kamillin etimadnaməsini qəbul edərkən deyib: “İsveç Avropa İttifaqı ilə regionumuz arasında daha geniş əməkdaşlıqla bağlı həmişə fəal olub. Avropa İttifaqı ilə Azərbaycan arasında indi çox yüksək səviyyəli tərəfdaşlıq mövcuddur və bu tərəfdaşlıq bir çox sahələri əhatə edir”.

Prezident daha sonra pandemiya ilə əlaqədar vəziyyətin Azərbaycanın planlarına müdaxilə etdiyini bildirib: “Bizdə bir neçə ay davam edən karantin rejimi tətbiq olundu. Buna görə bizim heç bir fəal, fiziki təmaslarımız olmadı. Lakin faktiki olaraq əməkdaşlıq davam edir. Buna görə də əminəm ki, bizdə yeni əməkdaşlıq formatı olacaq”.

Əlbəttə, bu cür sıx münasibətlər Aİ-nin Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəklə bağlı birmənalı mövqeyi fonunda formalaşır. Bununla əlaqədar bir məqamı xatırlatmaq istərdik. Belə ki, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri ilə münasibətlərində suverenlik və ərazi bütövlüyü əsas element olaraq xüsusi yer tutur. Elə bu səbəbdəndir ki, Şərq Tərəfdaşlığı sammitlərində Azərbaycanın mövqeyi qəti olur və müdafiə edilir. Bu mənada Şərq Tərəfdaşlığının bu il iyunun 18-də keçirilən sammiti də istisna təşkil etmədi və Azərbaycanın Ermənistan üzərində növbəti siyasi qələbəsi kimi tarixə düşdü.

*(ardı 3-cü səhifədə)*

Xalq qəzeti 2020.- 27 sentyabr.- S.1;3.

*(əvvəli 1-ci səhifədə)*

# Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir

Yeri gəlmişkən, Prezident İlham Əliyev sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışında da bir sıra beynəlxalq qurumların, eləcə də Aİ-nin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini diqqətə çatdırıb: "Cari ilin mart ayında Azərbaycanın işğal olunmuş torpaqlarında təşkil edilmiş qondarma "seçkilər" növbəti təxribat idi. Həmin dırnaqarası "seçkilər" əvvəlkilər kimi, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı, Avropa İttifaqı, Avropa Parlamenti və digərləri tərəfindən kəskin şəkildə qınanıldı və rədd edildi".

Dövlətimizin başçısı sentyabrın 25-də isə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən bu barədə ətraflı danışıb. Bildirib ki, keçən fevral ayındakı görüşdən indiyədək regionumuzda bir çox şey dəyişib. Əfsuslar olsun ki, region daha təhlükəsiz bir məkana çevrilməyib: "Təəssüf ki, vəziyyət mənfi məcraya doğru gedir. Bu da əsasən Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına görə baş verir. Ən təcavüzkar addım Ermənistan tərəfindən iyulun 12-də atılmışdır. Onlar bizim hərbi mövqeləri və kəndlərimizi atəşə tutmaq üçün artilleriyadan istifadə etmişlər. Bunun nəticəsində hərbi qulluqçular arasında itkilər olmuşdur və bir mülki şəxs də öldürülmüşdür. Ermənistanla dövlət sərhədinə yaxın kəndlərdə bir çox evlər darmadağın edilmişdir. Bundan əvvəl yenə də Ermənistan və Azərbaycan arasında dövlət sərhədində Ermənistanın hərbi təxribatları müntəzəm xarakter daşıyırdı. Lakin budəfəki kimi təcavüzkar formada olmamışdır".

Prezident İlham Əliyev söhbətində Ermənistanın müdafiə nazirinin hələ Amerika Birləşmiş Ştatlarında olarkən bəyanat verdiyini, Ermənistanın yeni ərazilər üçün yeni müharibəyə başlayacağını bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, bu, Ermənistanın təcavüzkar davranışının davam etməsini aydın göstərir: "İyulda hücumların məqsədi, dediyim kimi, əsasən Azərbaycanın yeni ərazilərini işğal etmək və sonra danışıqlar masasında daha güclü mövqeyə malik olmaq idi. İkinci səbəb Ermənistan əhalisinin diqqətini daxili problem və çətinliklərdən yayındırmaq idi. Növbəti səbəb, zənnimcə, onlar münaqişəyə üçüncü tərəfləri cəlb etmək istəyirdilər. Məğlub olduqdan dərhal sonra onlar yardım üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etdilər…".

Ölkə rəhbəri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə söhbətində Ermənistanın iyulda sərhədimizdə təxribat törətməsinin səbəblərdən birinin də danışıqlar prosesini pozmaq cəhdi olduğunu, bununla da məqsədə çatdığını bildirib: "Onlar danışıqları aparmaq istəmədiklərini nümayiş etdirdilər. İşğal olunmuş ərazilərdə, Xankəndidə Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır" bəyanatı faktiki olaraq Ermənistanın danışıqları tərk etməsini nümayiş etdirirdi. Çünki əks halda o, bu qəbuledilməz və yanlış bəyanatı səsləndirməkdən çəkinərdi".

Dövlətimizin başçısı ermənilərin danışıqlar prosesini bilərəkdən pozmasının daha bir göstəricisi kimi Dağlıq Qarabağdan olan separatçıları danışıqlar prosesinə cəlb etmək üçün ardıcıl səylər göstərməfləri və bunun Azərbaycan tərəfindən dərhal rədd edilməsi faktını da xatırladıb. Eyni zamanda, hazırda Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirdiyini, müharibəyə hazırlaşdığını, könüllülərdən ibarət qoşun yaratdığını vurğulayıb: "Əgər Ermənistan bəzən bəyan etdikləri kimi sülh istəyirsə, əgər onlar danışıqlar istəyirlərsə, buna nə ehtiyac var? Onların bu yalan və gülünc bəyanatlar verməsinə və praktiki addımlar atmasına nə ehtiyac var? On minlərlə insandan ibarət könüllü qoşunun bir məqsədi var –Azərbaycana hücum etmək. Onlar bu könüllü qoşunun tərkibinə yaşlı insanları və hətta qadınları daxil edirlər. Onlar işğal olunmuş ərazilərdə qondarma hərbi təlimlər təşkil edirlər ki, bu da bizə qarşı daha bir təxribatdır".

Aİ sözügedən məsələdə Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib. Bu, nüfuzlu qurumun ayrı-ayrı nəşrlərində də öz ifadəsini tapıb. Məsələn, bu günlərdə Aİ-nin media qurumu olan "Euractiv" portalında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Vasif Hüseynovun "Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı üfüqdə yeni müharibə görünürmü?" adlı yazısı dərc olunub. Məqalədə müəllif Prezident İlham Əliyevin sentyabrın 19-da yerli telekanallara müsahibəsində verdiyi mesajlara diqqət çəkərək, dövlətimizin başçısının "Ermənistan müharibəyə hazırlaşır..." xəbərdarlığı fonunda regionda baş verən hadisələrin təhlilini, habelə Ermənistanın işğalçılıq siyasətini davam etdirməsini diqqətə çatdırıb.

Prezident İlham Əliyev videokonfrans formatında reallaşan həmin sammitdəki çıxışında Azərbaycanın Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsi olduğunu, respublikamızla Aİ arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini diqqətə çatdırıb: "Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır".

Dövlətimizin başçısı daha sonra bildirib ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal altındakı bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan müvafiq sənədlərə əməl etmək əvəzinə, işğaldakı ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatının ləğvinə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Aİ-nin Azərbaycanın əsas ticarət tərəfdaşı olması da respublikamız üçün mühüm önəm daşıyır. Belə ki, bu gün ölkəmiz tərəfindən gerçəkləşdirilən icarət əməliyyatlarının təqribən 50 faizi Aİ-yə üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yuxarıda xatırlatdığımız kimi, yaxın vaxtlarda isə respublikamız Aİ-nin üzv dövlətlərini təbii qazla da təchiz edəcək.

Azərbaycanı Aİ bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı da məhz bu beynəlxalq qurumdur. Xatırladaq ki, hazırda Aİ-yə üzv ölkələr tərəfindən Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsi kimi dəyərləndirilir.

Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Aİ bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Aİ ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru, təbii ki, çox böyük yer tutur. Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Nazirlər toplantılarının keçirilməsi, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəldib. Bunu ABŞ, Böyük Britaniya, Rusiya və Türkiyə rəhbərlərinin Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin 25 illiyi və Cənub Qaz Dəhlizinə ilk qazın verilməsi münasibətilə ünvanladıqları məktubların məzmunu da bir daha təsdiq edir.

Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə də Aİ ilə uğurla əməkdaşlıq edib. Sentyabrın 7-də Aİ və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-lu ağır xəstələrin müalicəsinə kömək məqsədilə 129 oksigen konsentratoru və 60 pulsoksimetr Azərbaycanın Səhiyyə Nazirliyinə təhvil verib.

Bu tibbi ləvazimatlar Aİ-nin maliyyə dəstəyi ilə ÜST-ün Avropa Regional Ofisi tərəfindən "Sağlamlıq üçün həmrəylik təşəbbüsü" layihəsi çərçivəsində ölkəmizə gətirilib.

Sentyabrın 18-də keçirilən "Avropa İttifaqı-Azərbaycan Biznes Forum 2020-2022"yə həsr edilmiş onlayn konfransda isə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq şöbəsinin rəhbəri xanım Simona Qattinin Azərbaycan hökuməti tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatları yüksək qiymətləndirib, həmçinin iqtisadiyyatımızın dirçəlməsi məqsədilə hökumət tərəfindən təsis edilən İqtisadi Şuranın fəaliyyətini dəyərləndirib. Aİ-nin Azərbaycandakı nümayəndəsi Kestutis Yankauskas isə hər il çoxlu sayda iştirakçının qoşulduğu Aİ–Azərbaycan biznes forumunun çox əhəmiyyətli tədbir olduğunu bildirib. O, pandemiya səbəbindən dövlətlərarası sərhədlərin bağlanmasına baxmayaraq, Azərbaycan və Avropa ölkələri arasında ticarət əlaqələrinin artmaqda və inkişaf etməkdə davam etdiyini vurğulayıb.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***